# Sabahımızın sahiblərinə qayğı gələcəyimizə təminatdır

**Prezident İlham Əliyev deyib ki, milli dəyərlərimiz bizim üçün əsas prinsipdir və gənc nəsil də bu ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır. Gənc nəsil mənfi xarici təsirdən uzaq, savadlı, bilikli olmalı, eyni zamanda, milli mədəniyyətimizə yaxın olmalıdır. Çünki indi dünyada qloballaşma prosesləri gedir və bəzi hallarda xarici dairələr gəncləri özləri üçün əsas hədəf seçirlər. Yəni, gəncləri aldatmaq, yoldan çıxarmaq üçün səylər göstərilir. Biz bunu görürük və əlbəttə, qarşısı alınmalıdır.**



2 Fevral – Gənclər Günü həmişə sabahımızın sahiblərinə böyük diqqət və qayğı ilə yanaşan, bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, həmin gün Azərbaycan Gənclərinin bayramı elan edilib. Azərbaycanın gənclər siyasətində əldə olunmuş uğurlarda, idmanın, bədii yaradıcılığın inkişaf etdirilməsində, intellektual gənclərin yetişməsində Prezident İlham Əliyevin misilsiz əməyi vardır.

Gənclər Günü, əslində, hamımızın bayramıdır. Yalnız yaşca gənc olanların deyil, ruhən gənc olanların da, gənclərlə işləyib onların tərbiyəsinə məsuliyyət daşıyanların da bu günü qeyd etməyə haqqı çatır. Tarix dəyişsə də, gənclik ruhu davam edir, milli-mənəvi dəyərlər yaşadılır. Məhz vətənpərvər gənclik özünün sanbalı ilə xoşbəxt gələcəyin müjdəçisi olur.

Prezident İlham Əliyevin 2007-ci ilin “Gənclər ili” elan edilməsi ilə bağlı sərəncamı o zaman gənclərin fəallığının daha da yüksəlməsinə səbəb olub. Elm və texnologiyanın sürətli inkişafı, post-neft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Ölkə rəhbəri bunu nəzərə alaraq, gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb...

Azərbaycan gəncliyi bu gün xalqın, millətin qalibiyyət dövrünü yaşayır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qalib dövlətə çevrilməyimiz, tarixin səhifələrinə pozulmaz Zəfər səhifələri yazmağımız həm də gənclərimizin böyük hünəridir. Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülmüş 83 nəfər soydaşımızın yarıdan çoxu kiçik zabit heyəti mənsubu və əsgərlərdən ibarətdir. Qarabağı görməyən, işğal dövründə doğulub böyüyən, Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi bir dönəmdə yetişmiş gənclərimizin Şuşaya üçrəngli bayrağımızı sancması dünya üçün misilsiz bir nümunədir.

Bəli, gənclik üzü sabaha böyük inamla irəliləyir. Taleyinin uğur səhifələrini yazan gənclərimiz daha böyük zirvələr fəth etməyə qadirdirlər.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***

Xalq qəzeti .- 2023.- 2 fevral.- S.6.